**«Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə**

**Azərbaycan RESPUBLİKASININ Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. «Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası haqqında» Azərbaycan Respublikasının Qanununa aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1.2-ci maddədə:

birinci hissə aşağıdakı redaksiyada verilsin:

«Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası 18 üzvdən ibarətdir. Mərkəzi Seçki Komissiyası üzvlərinin 1/3 hissəsi vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 1/3 hissəsi heç bir siyasi partiyaya mənsub olmayan və onların namizədliklərini təqdim edən deputatları, 1/3 hissəsi vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları Milli Məclisdə azlıq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyaları təmsil edirlər. Heç bir siyasi partiyaya mənsub olmayan deputatları Mərkəzi Seçki Komissiyasında namizədlikləri onlar tərəfindən irəli sürülmüş müstəqil hüquqşünaslar təmsil edirlər. 2 müstəqil hüquqşünasın namizədlikləri maraqlı tərəflərlə razılaşdırılır: bir namizəd vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanın nümayəndələri ilə, digər namizəd isə vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaların nümayəndələri ilə razılaşdırılır»;

ikinci hissədə «12» rəqəmləri «9» rəqəmləri ilə əvəz edilsin, «həlledici səs hüququna malik olan» sözləri çıxarılsın;

üçüncü hissə aşağıdakı redaksiyada verilsin:

«Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin səlahiyyət müddəti 6 ildir. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası üzvlərinin 1/3 hissəsi iki ildən bir bərabər sayda onları təyin edən hər bir dövlət orqanı tərəfindən bu maddədə göstərilən qaydada yenidən təyin edilir»;

dördüncü hissədə «katibi» sözü «katibləri» sözü ilə, «gizli» sözü «açıq» sözü ilə, «adi səs çoxluğu» sözləri «bu Qanunun 3-cü maddəsində göstərilən qaydada»

sözləri ilə əvəz edilsin, «həlledici səs hüququna malik olan» sözləri çıxarılsın, hissəyə aşağıdakı məzmunda yeni cümlə əlavə edilsin: «Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvləri ali təhsilli olmalıdırlar».

2. Qanuna aşağıdakı məzmunda 2-1, 2-2, 2-3 və 2-4-cü maddələr əlavə edilsin:

«Maddə 2-1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının fəaliyyət istiqamətləri

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası:

vətəndaşların seçki və referendumda iştirak hüquqlarına riayət olunmasına nəzarət edir;

aşağı seçki komissiyalarının işi üçün zəruri olan texnoloji avadanlığın normativlərini hazırlayır və təsdiq edir, onlara riayət olunmasına nəzarət edir;

seçkilərin və referendumların hazırlanması və keçirilməsi, seçki sisteminin inkişafı, seçicilərin hüquq təhsili, seçki komissiyaları üzvlərinin peşə hazırlığı ilə əlaqədar proqramların həyata keçirilməsini təmin edir;

seçkilərin və referendumların maliyyələşdirilməsi ilə bağlı tədbirləri həyata keçirir, qeydə alınmış namizədlər, seçici birlikləri və seçici blokları arasında efir vaxtının bölüşdürülməsinin vahid qaydalarını təsdiq edir, seçkilər və referendumlar zamanı səsvermənin nəticələrini, həmin nəticələrin dərc olunması qaydalarını müəyyən edir;

dövlət büdcəsindən seçkilərin və referendumların hazırlanmasına və keçirilməsinə ayrılan maliyyə vəsaitlərini bölüşdürür, onların məqsədli xərclənməsinə nəzarət edir;

aşağı seçki komissiyalarına hüquqi, metodiki və texniki-təşkilati kömək göstərir;

seçki bülletenlərinin, referendumda səsvermə bülletenlərinin, seçici siyahılarının və digər seçki və referendum sənədlərinin hazırlanması normativlərini müəyyən edir;

aşağı seçki komissiyalarının qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) şikayətlərə (ərizələrə) baxır və onlara aid əsaslandırılmış qərarlar qəbul edir;

Azərbaycan Respublikasının müvafiq qanunlarına uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanları ilə birlikdə seçicilərin qeydə alınmasının vahid sistemini təşkil edir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri çərçivəsində seçkilərə və referenduma aid qanunların həyata keçirilməsinə dair təlimatlar və metodiki göstərişlər qəbul edə bilər.

Aşağı seçki komissiyası tərəfindən vətəndaşların seçki və referendumda iştirak hüquqları pozulduqda və belə bir hal nəticəsində Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (və ya müvafiq məhkəmə) müvafiq ərazidə səsvermənin nəticələrini etibarsız hesab etdikdə, Mərkəzi Seçki Komissiyası həmin aşağı seçki komissiyasını buraxa bilər. Aşağı seçki komissiyasının buraxılmasına dair Mərkəzi Seçki Komissiyasının qərarından Azərbaycan Respublikasının Ali Məhkəməsinə qanunvericiliklə müəyyən edilən şəxslər tərəfindən şikayət verilə bilər. Bu şikayət dərhal baxılmaq üçün qəbul edilir və müvafiq qərar bir həftədən gec olmayaraq çıxarılır. Azərbaycan Respublikası Ali Məhkəməsinin bu barədə qərarının qanuni qüvvəyə mindiyi gündən ən geci bir həftə keçənədək müvafiq aşağı seçki komissiyası qanunvericilikdə nəzərdə tutulmuş qaydada təşkil olunmalıdır.

Maddə 2-2. Milli Məclisə seçkilər zamanı Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının səlahiyyətləri

Mərkəzi Seçki Komissiyası Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi zamanı aşağıdakı səlahiyyətləri həyata keçirir:

dairə və məntəqə seçki komissiyalarının fəaliyyətinə rəhbərlik edir;

seçkilərin hazırlanmasında və keçirilməsində Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarına riayət olunmasına nəzarət edir, «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» Qanunun eyni cür tətbiqini təmin edir;

birmandatlı seçki dairələrinin yaradılması sxemini hazırlayır və təsdiq edir;

birmandatlı seçki dairələrinin yaradılması sxeminə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanlarının təqdim etdiyi məlumatlar əsasında Azərbaycan Respublikasında yaşayan seçicilərin müvafiq birmandatlı seçki dairəsində qeydə alınmasını təşkil edir;

özünün təşkiledilmə prinsipinə uyğun olaraq, dairə seçki komissiyalarını yaradır;

«Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» Qanunun tətbiqi məsələlərinə aid təlimatlar və digər normativ aktlar qəbul edir;

seçki komissiyalarına hüquqi, metodiki, texniki-təşkilati kömək göstərir;

dövlət avtomatlaşdırılmış informasiya sistemindən eyni cür istifadəni təmin etmək məqsədi ilə seçki komissiyalarının fəaliyyətinə rəhbərliyi həyata keçirir;

seçici birliklərini və seçici bloklarını qeydə alır;

seçici birliklərinin və seçici bloklarının irəli sürdükləri namizədlərin vahid siyahılarını təsdiq edir;

seçici birliklərinin və seçici bloklarının irəli sürdükləri namizədlərin vahid siyahılarını qeydə alır;

qeydə alınmış namizədlərin ümumi siyahılarını dərc edir;

seçici birliklərinin, seçici bloklarının səlahiyyətli nümayəndələrini, vəkil edilmiş şəxslərini qeydə alır;

vahid çoxmandatlı seçki dairəsi üzrə namizədlərə, vəkil edilmiş şəxslərə, seçici birliklərinin və seçici bloklarının səlahiyyətli nümayəndələrinə müəyyən edilmiş formada vəsiqə verir;

bütün namizədlər, qeydə alınmış namizədlər, seçici birlikləri, seçici blokları tərəfindən «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» Qanunla müəyyən edilmiş seçkiqabağı fəaliyyət şərtlərinə riayət olunmasını təmin edir;

seçki bülletenlərinin, seçici siyahılarının və digər seçki sənədlərinin nümunələrini təsdiq edir, onların hazırlanmasını və mühafizəsini təmin edir;

seçki komissiyaları möhürlərinin nümunələrini təsdiq edir;

seçki sənədlərinin saxlanması və arxivə verilməsi qaydalarını təsdiq edir;

dövlət büdcəsindən seçkilərin hazırlanmasına və keçirilməsinə ayrılan maliyyə vəsaitlərini seçki komissiyaları arasında bölüşdürür, göstərilən vəsaitlərin təyinatı üzrə xərclənməsinə, həmçinin namizədlərin, qeydə alınmış namizədlərin, seçici birliklərinin, seçici bloklarının seçki fondlarına daxil olmuş vəsaitlərin xərclənməsinə nəzarəti təmin edir;

seçkiqabağı təşviqat üçün seçici birlikləri, seçici blokları, qeydə alınmış namizədlər arasında efir vaxtı bölgüsünün eyni qaydada həyata keçirilməsini təmin edir;

aşağı seçki komissiyaları üçün texnoloji təchizat normativlərini təsdiq edir və bunlara əməl olunmasına nəzarət edir;

seçiciləri seçici hərəkətlərinin həyata keçirilməsi müddətləri, qaydası və seçkilərin gedişi haqqında məlumatla təmin edir;

seçki komissiyalarının otaqlarla, nəqliyyat və rabitə vasitələri ilə təmin olunmasına nəzarət edir və seçkilərin maddi-texniki təminatı ilə bağlı digər məsələləri həll edir;

aşağı seçki komissiyalarının və onların vəzifəli şəxslərinin qərar və hərəkətlərindən (hərəkətsizliyindən) şikayətlərə baxır və onlara aid əsaslandırılmış qərarlar qəbul edir;

birmandatlı seçki dairələri üzrə qeydə alınmış namizədlər arasında və vahid çoxmandatlı seçki dairəsi üzrə seçici birlikləri, seçici blokları tərəfindən irəli sürülərək qeydə alınmış namizədlərin vahid siyahılarındakı namizədlər arasında seçilmiş deputatları müəyyən

edir, onlara müvafiq vəsiqə verir;

Azərbaycan Respublikası üzrə Milli Məclisə seçkilərin yekunlarını, məntəqə seçki komissiyalarının protokollarındakı məlumatlar da daxil olmaqla, rəsmi dərc edir;

seçilmiş deputatların siyahısını tərtib edir, bu siyahıları və lazımi sənədləri Milli Məclisə təqdim edir;

təkrar seçkilərin və sıradan çıxmış deputatların yerinə seçkilərin keçirilməsini təşkil edir;

«Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» Qanunda nəzərdə tutulmuş başqa səlahiyyətləri həyata keçirir.

Maddə 2-3. Azərbaycan Respublikası Prezidentinin seçkiləri zamanı Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının səlahiyyətləri

Mərkəzi Seçki Komissiyası Prezident seçkilərinin hazırlanması və keçirilməsi zamanı qanunla müəyyən olunmuş qaydada aşağıdakı səlahiyyətləri həyata keçirir:

ərazi və məntəqə seçki komissiyalarının fəaliyyətinə rəhbərlik edir;

Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanmasının və keçirilməsinin qanuniliyinə nəzarət edir və qanunun eyni cür tətbiqini təmin edir;

Azərbaycan Respublikası Prezidentinin seçkilərini hazırlayan və keçirən seçki komissiyaları üçün «Azərbaycan Respublikası Prezidentinin seçkiləri haqqında» Qanunun tətbiqinə aid məcburi təlimatlar və digər normativ aktlar qəbul edir;

özünün təşkiledilmə prinsipinə uyğun olaraq ərazi seçki komissiyalarını yaradır;

seçicilərin təşəbbüs qrupunu, seçici birliyini, seçici blokunu qeydə alır;

Prezidentliyə namizədləri və onların vəkil edilmiş şəxslərini qeydə alır;

Prezidentliyə namizədlərə və onların vəkil edilmiş şəxslərinə müəyyən olunmuş nümunədə vəsiqə verir;

Prezidentliyə bütün namizədlərə seçkiqabağı fəaliyyət üçün bərabər hüquqi şərait təmin edir;

icra hakimiyyəti və yerli özünüidarə orqanlarından seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar bu Qanuna əsasən zəruri olan məlumatları alır;

seçki bülleteninin, seçicilərin siyahılarının və digər seçki sənədlərinin nümunələrini təsdiq edir;

seçki məntəqələrinin nömrələnməsinin vahid qaydasını müəyyən edir;

seçki komissiyaları möhürlərinin nümunələrini təsdiq edir və seçki sənədlərinin paylanması və saxlanması qaydalarını müəyyən edir;

dövlət büdcəsindən seçkilərin hazırlanmasına və keçirilməsinə ayrılmış maliyyə vəsaitlərini bölüşdürür, onların təyinatı üzrə xərclənməsinə nəzarət edir, seçki komissiyalarının səlahiyyət müddətində fəaliyyətlərini təmin edir;

seçki komissiyalarının müvafiq otaqlarla, nəqliyyat, rabitə vasitələri ilə təmin olunmasına nəzarət edir və seçkilərin maddi-texniki təminatı ilə bağlı digər məsələləri həll edir;

aşağı seçki komissiyalarının qərar və hərəkətlərindən (hərəkətsizliyindən) verilən şikayətlərə (ərizələrə) baxır və bu şikayətlər (ərizələr) üzrə əsaslandırılmış qərarlar qəbul edir;

səsvermə nəticələrinin hazırlanmasının vahid qaydasını müəyyən edir;

Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarını müəyyən edir;

Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarını, məntəqə seçki komissiyalarının protokollarındakı məlumatlar da daxil olmaqla, rəsmi dərc edir;

seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar sənədləri dövlət arxivinə verir;

Prezident seçkiləri üzrə təkrar səsvermə keçirilməsini təşkil edir;

təkrar Prezident seçkiləri keçirilməsini təşkil edir;

«Azərbaycan Respublikası Prezidentinin seçkiləri haqqında» Qanuna uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

Maddə 2-4. Bələdiyyə seçkiləri zamanı Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının səlahiyyətləri

Mərkəzi Seçki Komissiyası:

bələdiyyə seçkiləri zamanı qanunvericiliyə əməl olunmasına nəzarət edir, «Bələdiyyələrə seçkilərin qaydaları haqqında» Qanunun eyni cür tətbiqini təmin edir;

«Bələdiyyələrə seçkilərin qaydaları haqqında» Qanunun tətbiqi məsələləri ilə bağlı təlimatlar və başqa sənədlər qəbul edir, seçki komissiyalarının üzvləri üçün təlim-seminarlar təşkil edir;

özünün təşkiledilmə prinsipinə uyğun olaraq ərazi seçki komissiyalarını yaradır;

seçki məntəqələrinin nömrələnməsi qaydasını müəyyən edir;

seçki bülletenlərinin, seçici siyahılarının və başqa seçki sənədlərinin nümunələrini təsdiq edir və çapını təşkil edir;

seçki komissiyaları möhürlərinin nümunələrini, seçki sənədlərinin göndərilməsi və mühafizəsi qaydasını təsdiq edir;

seçkilərin maliyyə təminatı üçün Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılmış vəsaitləri bölüşdürür və onların məqsədli xərclənməsinə nəzarət edir;

seçkilərə hazırlıqla bağlı dövlət orqanlarının məlumatlarını dinləyir;

seçkiqabağı təşviqat materiallarının mətbuatda dərc olunması qaydalarını müəyyən edir;

daxil olmuş şikayətlərə baxır və şikayətçilərə vaxtında cavab verir;

ərazi seçki komissiyasının təqdimatı əsasında təkrar və əlavə seçkilərin keçirilməsi haqqında qərar qəbul edir;

əlavə seçkilərin keçirilməsi haqqında qərarlar qəbul edir;

«Bələdiyyələrə seçkilərin qaydaları haqqında» Qanundan irəli gələn başqa səlahiyyətləri həyata keçirir».

3-cü maddədə:

ikinci hissə aşağıdakı redaksiyada verilsin:

«Mərkəzi Seçki Komissiyasının sədri vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanı təmsil edir, Mərkəzi Seçki Komissiyasının katiblərindən biri heç bir siyasi partiyaya mənsub olmayan deputatları, digəri isə vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları təmsil edir. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarları onun iclasında iştirak edən üzvlərinin 2/3 səs çoxluğu ilə açıq səsvermə yolu ilə qəbul edilir:

Mərkəzi Seçki Komissiyasının iclasında Mərkəzi Seçki Komissiyasının üzvlərinin 12-si iştirak edərsə — azı 8 üzvün səs çoxluğu ilə, 13-ü iştirak edərsə — azı 9 üzvün səs çoxluğu ilə, 14 və ya 15-i iştirak edərsə — azı 10 üzvün səs çoxluğu ilə, 16-sı iştirak edərsə — azı 11 üzvün səs çoxluğu ilə, 17-si və ya 18-i iştirak edərsə — azı 12 üzvün səs çoxluğu ilə. Mərkəzi Seçki Komissiyasının qərarları Mərkəzi Seçki Komissiyasının sədri və katibləri tərəfindən imzalanır. Həmin şəxslər Mərkəzi Seçki Komissiyasının qərarını imzalamadıqda, qərar ona səs vermiş Mərkəzi Seçki Komissiyasının üzvləri tərəfindən imzalanır. Mərkəzi Seçki Komissiyasının qərarları iki gün ərzində rəsmi dərc edilməlidir»;

aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

«Mərkəzi Seçki Komissiyasının iclasında onun üzvlərinin azı üçdə iki hissəsindən az olmayan sayda üzvü iştirak edərsə, iclas səlahiyyətlidir;

4. 4-cü maddədə:

birinci hissədən «Həlledici səs hüququna malik olan» sözləri çıxarılsın;

birinci hissədən sonra aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

«Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvləri öz fəaliyyətlərini Mərkəzi Seçki Komissiyasının reqlamentinə uyğun olaraq konkret fəaliyyət istiqamətləri əsasında qururlar və həmin istiqamətlər üzrə öz fəaliyyətlərinə görə məsuliyyət daşıyırlar»;

ikinci, üçüncü, dördüncü, beşinci, altıncı, yeddinci və səkkizinci hissələr müvafiq olaraq, üçüncü, dördüncü, beşinci, altıncı, yeddinci, səkkizinci və doqquzuncu hissələr hesab edilsin;

üçüncü hissəyə «müşahidəçilər» sözündən sonra «aşağı seçki komissiyasının üzvləri» sözləri əlavə edilsin, «Həlledici səs hüququna malik olan» sözləri çıxarılsın;

beşinci hissəyə aşağıdakı məzmunda birinci cümlə əlavə edilsin:

«Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü onu təyin edən dövlət orqanının qərarı ilə vaxtından əvvəl üzvlükdən azad edildikdə, təxirə salınmadan onun yerinə bu Qanunun 2-ci maddəsində göstərilən qaydada müvafiq dövlət orqanı tərəfindən yeni üzv təyin edilir»; hissədən «həlledici səs hüququna malik olan» və «siyasi partiyanın üzvü olduqda» sözləri çıxarılsın, hissəyə aşağıdakı məzmunda doqquzuncu və onuncu abzaslar əlavə edilsin:

«aşağı seçki komissiyasının üzvü olduqda;

öz vəzifələrini icra etmədikdə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda»;

yeddinci hissə aşağıdakı redaksiyada verilsin:

«Mərkəzi Seçki Komissiyasının üzvləri seçkilər zamanı öz fəaliyyətlərinə görə əmək haqqı alırlar».

5. 5-ci maddənin birinci hissəsindən «daimi fəaliyyət göstərən» sözləri çıxarılsın, hissəyə aşağıdakı məzmunda yeni cümlə əlavə edilsin: «Mərkəzi Seçki Komissiyasının sədri Mərkəzi Seçki Komissiyasının üzvləri arasında, Mərkəzi Seçki

Komissiyası sədrinin müavinləri və Mərkəzi Seçki Komissiyasının katibləri də daxil olmaqla, vəzifə bölgüsü aparır».

6. 6-cı maddə aşağıdakı redaksiyada verilsin:

«Maddə 6. Mərkəzi Seçki Komissiyasının qərarlarından şikayət

Mərkəzi Seçki Komissiyasının qərarlarından Azərbaycan Respublikasının Ali Məhkəməsinə şikayət verilə bilər. Azərbaycan Respublikasının Ali Məhkəməsi Mərkəzi Seçki Komissiyasının qərarlarından şikayətlərə 5 gündən az olmayan müddətdə baxır. Mərkəzi Seçki Komissiyasının qərarından şikayət onun rəsmi dərc edildiyi gündən başlayaraq 7 gün ərzində Azərbaycan Respublikasının Ali Məhkəməsinə təqdim edilə bilər».

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**
**Bakı şəhəri, 9 iyun 2000-ci il**

**№ 890-IQD**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 30 iyun, № 6.- S. 2494-2501.**